# Qəbələdə izdihamlı mitinq-konsert

Oktyabrın 6-da minlərlə qəbələli Qəbələ şəhərində yerləşən turizm və otelçilik üzrə peşə tədris mərkəzinin stadionuna toplaşmışdı. Saat 15.00 da mitinqi giriş sözü ilə YAP Qəbələ Rayon Təşkilatının sədri Abil Ağasəfov açdı. O bildirdi ki, Azərbaycan Respublikası Prezidenti seçkiləri kampaniyası çox yüksək səviyyədə davam edir. Azərbaycan Respublikası Prezidentliyinə namizəd cənab İlham Əliyevin təbliğat qrupu üzvlərinin rayonun bütün yaşayış məntəqələrində keçirdiyi mitinqlər, görüşlər və sair tədbirlər seçicilərin böyük fəallığı ilə qarşılanmışdır. Bu mitinq və görüşlərdə seçicilər yekdilliklə ölkəmizin sürətli inkişafının və sabitliyinin qarantı cənab İlham Əliyevə səs verəcəklərini bildirmişlər.

YAP Qəbələ Rayon Təşkilatı sədrinin giriş sözünün sonunda səsləndirdiyi «İlhamla uğurlu gələcəyə doğru irəli» şüarı iştirakçıların sürəkli alqışları ilə qarşılandı.

Söz Milli Məclisin üzvü, respublika Ağsaqqallar Şurasının sədri Fəttah Heydərova verildi. O son 10 ildə Azərbaycanda, o cümlədən Qəbələ rayonunda görülən böyük quruculuq işlərindən, ölkə rəhbərliyi tərəfindən aparılan uğurlu sosial-iqtisadi siyasətdən bəhs etdi. Bütün nailiyyətlərin əldə olunmasının ölkə Prezidenti cənab



İlham Əliyevin yorulmaz fəaliyyətinin nəticəsi olduğunu faktlarla mitinq iştirakçılarına çatdırdı. Belə ki, iqtisadiyyat real ifadədə 3,4 dəfə, dövlət büdcəsi 19 dəfə artmışdır ki, bu nəinki MDB məkanında, hətta bütün dünyada əldə olunması möcüzə kimi görünən böyük rəqəmlərdir.

On ildə ölkədə infrastruktur başdan-başa dəyişmişdir. Bu sahədəki ən böyük layihələrdən 5 beynəlxalq hava limanını, 31 nəhəng körpünü, 726 kilometr avtomobil yollarını, 8,4 min kilometr qaz kəmərlərini, 14 elektrik stansiyalarını xatırlatmaq kifayətdir.

Son on ildə əhalinin gəlirləri 6,9 dəfə, əmək haqqı 6,2 dəfə, pensiyalar 8 dəfə yüksəlmişdir. Yoxsulluğun səviyyəsi 44 faizdən 6 faizə, işsizliyin səviyyəsi 5 faizə enmişdir.

Cənab Fəttah Heydərov çıxışında qeyd etmişdir ki, ölkə prezidentinin qayğısı sayəsində Qəbələ də uğurlu yüksəliş dövrünü yaşayır. Son illərdə dövlət başçısı Qəbələnin sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında 4 sərəncam imzalamışdır. Nəticədə Qəbələ rayonunda ümumi məhsul istehsalı 5 dəfə, o cümlədən sənaye məhsulu istehsalı 6,8 dəfə, kənd təsərrüfatı istehsalı 1,7 dəfə artmışdır. Çox sayda səhiyyə, təhsil, mədəniyyət obyektləri tikilmiş və təmir olunmuşdur.

Mitinq iştirakçılarını seçkilərdə möhtərəm cənab İlham Əliyevə səs verməyə çağırdı. Fəttah Heydərovun çağırışı izdihamlı keçən mitinq iştirakçıları tərəfindən «İlhamla irəli», «İlham», «İlham» sədaları ilə qarşılandı.

Mitinq görkəmli incəsənət ustalarının konserti ilə başa çatdı.

**Qüdrət SƏMƏDOV.**
**Fotolar S. Umuyevindir.**




